*Milli Məclisə növbədənkənar seçkilər müstəqillik tariximizdə ilk dəfə bütöv Azərbaycan ərazisində keçiriləcək. Ölkəmizdə ədalətli, şəffaf və demokratik seçkinin təminatı üçün bütün mövcud şərait yaradılmışdır.*



# Seçki məntəqələri səsverməyə hazırdır

Dairə və məntəqə komissiyalarının sədrləri üçün keçirilmiş seminarlardan, məntəqə komissiyalarının üzvləri üçün təşkil olunmuş treninqlərdən sonra seçkiyə hazırlıq işləri daha da sürətlənib. Bu metodiki yardım bütün proseslərin qüsursuz həyata keçirilməsinə zəmin yaradır.

Heydər Əliyev küçəsi 4 ünvanında yerləşən 69 saylı Biləsuvar seçki dairəsində seçki komissiyalarının sentyabrın 1-də keçiriləcək parlament seçkilərinə yüksək işgüzarlıqla, vətəndaş məsuliyyəti ilə hazırlıq davam edir.

**69 saylı Biləsuvar seçki dairəsinin sədri Əzizağa Hətəmov** söhbət zamanı bildirdi ki, seçicilərin iştirak hüququnun təmin edilməsi üçün dairə və məntəqələrdə bütün zəruri işlər ardıcıllıqla həyata keçirilir. Artıq seçki siyahıları dəqiqləşdirilərək səsvermə məntəqələrindən asılıb. Zəruri təmir-abadlıqdan tutmuş kameraların qurulmasınadək bütün işlər yüksək səviyyədə görülür. DSK-nın sədri bildirdi ki, ötən prezident, parlament və bələdiyyə seçkilərində səsvermələrin təşkilində böyük təcrübə toplamış dairə komissiyası qarşıdan gələn növbədənkənar parlament seçkilərinə hazırlığı yüksək peşəkarlıqla davam etdirir. DSK-nın və ərazidəki 11 şəhər, 35 kənd məntəqələrinin hamısı səsverməyə hazır vəziyyətə gətirilmişdir. 10 məntəqədə veb-kamera quraşdırılmışdır. Sentyabrın 1-də dairə üzrə 53580 seçicinin səsvermədə iştirakının təmin edilməsi üçün siyahısı hazırlanıb. İlk dəfə 410 nəfər səs verəcək. Yaşı 80-100 arasında olan 822 seçici haqqında məlumat bir daha dəqiqləşdirilmişdir. Müşahidə aparmaq üçün 322 müraciət daxil edilmişdir ki, onların da müraciətləri müvafiq qaydada cavablandırılır. Son hazırlıq işlərini də tələb olunan səviyyədə başa çatdırmaqla səsvermənin mütəşəkkil şəkildə keçirilməsini təmin edəcəyik.

**Ərəstun ABDULOV,**
**"Respublika".**